# RƏSUL RZANIN SÖZ DÜNYASI



XX əsrin I yarısında Azərbaycan dilini təmizləyən, xalqa yaxınlaşdıran onun boynundan ərəb-fars dilinin ağalığını birdəfəlik endirən şairlər S.Vurğun, S.Rüstəm, R.Rza oldu.

Bu illər ərzində döyülən, söyülən, gəlişi peyğəmbər gəlişinə bənzəyən sərbəst vəzn. “Dişləri qırılan”, “başına daşlar yağan”, “bəzən çarmıxa çəkilən” sərbəst, səpkili vəzn və onun söykəndiyi insan Rəsul Rza.

Yaddaşlarda qalan illər, tarixi dövrlər, epoxalar, insanın keçdiyi həyat yolunda beyni, təfəkkürü, eşqi, üzərinə götürdüyü missiyanı qeyrətlə həyata keçirmək əzmi.

Hər dövrün yeniliyə qarşı çıxma üsulları var. Mürtəce qüvvələrin birincilik taxtını əldən vermək istəməyən, sözü keçən məqamında cəmiyyətdə partlayış yaratmaq qüdrətində olanların bir anda dərisi soyulur, həyat şamı yarıda söndürülür. Bəzən vaxt, zaman onun yuxusuna daş atanları tanımaq istəmir, susur, topluma gedən yolunun üstündə qaratikan kolu bitirir, sözü keçən paxıl, nadanlar yox deyir və dedirdir.

Bəşərin dərdini, əzabını Azərbaycan ədəbiyyatının təmiz havası olan əzabkeş Rəsul Rza görürdü, duyurdu, misralara çevirirdi. “Soruş” şeirində deyirdi:

*Nələr çəkdi çaylaq daşı,*
*Seldən soruş.*
*Nəğmələrin həsrətini*
*Bir qırılmış teldən soruş*
*Zülmətliyin möhnətini kor söyləsin.*

Rəsul Rza insan mənəviyyatını, duyğu və düşüncəsini ali məqama səsləyirdi. Bədii sözü də o məqamda görmək istəyirdi. Gənc yaradıcıların qulağından sırğa kimi asılacaq nəsihətlər verirdi:

*Nə gözəl oxuyur bülbül,*
*Nə xoş ətir saçır qızılgül.*
*Boş şeydir, oğlan, aldada bilməzsən,*
*Onsuz da, şirinlikdən bezaram.*

Dünyanın görə bilmədiyi, dərk etmədiyi etmək istəmədiyi dərdləri ya da Rəsul Rzanın dərdi. Sərhədlə kilidlənmiş ölkələr, dirilərin ölülərdən daha ağır faciəsi, irilərin torunda çapalayan xırdalar, dünyanın ac uşaqları, növbənöv ölüm püskürən silahların ixtirası

Şüurlarda gizlənmiş qorxu, dodaqlarda qovrulan söz, əzrayılın ədalətsizliyi, dost etibarsızlığı, səmimiyyətdən uzaq soyuq ahlar, təəssüflər, nələr, nələr ağrıdırdı, nəhs zamanın döydüyü, incitdiyi şairi.

Şair sadə, səmimi məhəbbət və sevgi duyğularının qanadında da uça bilir. “Öldürdü nazın məni, insaf da yaxşı şeydir” deyir.

Bəzən şeytana qul insanların içərisində şair daxili haray qoparırdı.

*Dərdimi kimə deyim,*
*Dünya dolu adamdır.*

Yaxud:

*Həzər dostluğu, düşmənliyi bilinməyən,*
*Dodağı təbəssüm damğalı*
*İnsandan həzər!*
*Hər yerdə*
*Hər an həzər.*

Rəsul Rza dözdü, durdu, öz söz qalasını tikdi, naxışlarını vurdu və bir gün bütün deyilənlərin yalan olduğuna yer kürəsinin inandığı gün - dünyanın gülüş günü haqq şərbətini içdi. Olanların, deyilənlərin doğruluğuna inanmadığımız gün.

Taleyinin belə bir ölüm günü seçməsində də dərin bir hikmətin bəlirtiləri görünür. Bu ölüm özü də məcazi mənada yalandır. O, əbədi olaraq yer üzündədir. Yaşayır, insanlarla ülfət bağlayır, düşündürür və ardınca aparır.

*Hansı şeirim,*
*Hansı sözüm*
*Yaşayacaq məndən sonra?*
*Mən bilmirəm,*
*Eldən soruş!*

Yaxud:

Mübarizə bu gün də var, yarın da,
Mən də onun ən ön sıralarında,

R.Rza ana dilimizin bağrında möhtəşəm bir tunel yaratdı. bu tuneldən lağım atıb hər sözün, hər kəlmənin ürəyində, qan yaddaşında yatan duyğu və düşüncələri, keşməkeşli tariximizi, onun rəngini, dadını, görüntülərini, səslərini və hissiyyatını rəngləri ilə birlikdə çəkib həyatın saf havasına çıxardı. Hər misrası bir möhtəşəm rəsm tablosu, şeir, poema, roman mövzusu olan məşhur, başıbəlalı rənglər silsiləsini yaratdı.

## AĞ İŞIQ

*Yuxulu körpənin təbəssümü.*
*Ümid.*
*Təmənnasız yaxşılıq.*
*“Sizdə xərçəng yoxdur!” -*
*sözlərinin deyildiyi dəqiqə.*
*İnsan səadətinə səbəb olan*
*Hər şey*
*Hətta,*
*Təsəlli üçün deyilmiş yalan,*
*Bir də*

İllər keçdikcə də R.Rza şeiri məktəb missiyasını əzmlə yerinə yetirəcək, tərbiyə edəcək, dilin yeni-yeni qatlarının, ifadə imkanlarının yaranmasına özül olacaqdır.

**Nafilə Abuzərli**